# Məhəmməd Əmin Rəsulzadəyə ədəbi abidə: I beynəlxalq Rəsulzadə qiraətləri



*Tahirə* Həsənzadə
***AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu tarix elmləri doktoru***

Azərbaycan Xalq Cümhuriyyətinin lideri Məhəmməd Əmin Rəsulzadə irsi tədqiqatçılarının məqalələr toplusu, "I Beynəlxalq Rəsulzadə Qiraətləri" adlı kitab "Rəsulzadə ev muzeyi" İctimai Qrupu tərəfindən nəşrə hazırlanıb. Kitaba 2020-2022-ci illəri əhatə edən "I Beynəlxalq Rəsulzadə Qiraətləri"nin materialları daxildir. Kitabı nəşrə hazırlayan və redaktoru t.e.d., prof. Solmaz Rüstəmova-Tohididir. Solmaz xanım eyni zamanda "Rəsulzadə ev muzeyi" İctimai Qrupu Təşkilat Komitəsinin sədridir.

"I Beynəlxalq Rəsulzadə Qiraətləri"nin bu nəşrində 11 ölkədən (Azərbaycan, Türkiyə, Fransa, Almaniya, Rusiya, İran, ABŞ, İsveç, Ukrayna, Polşa və Şimali Kipr Türk Respublikası) 40 nəfər ictimai xadim və tədqiqatçının elmi, publisistik məqaləsi, sənədlər öz əksini tapmışdır. Bu nəşr görkəmli ictimai-siyasi xadim, diplomat, Azərbaycan Respublikasının xüsusi tapşırıqlar üzrə səfiri Ramiz Abutalıbovun işıqlı xatirəsinə həsr olunmuş, kitabda mərhumun "Məhəmməd Əmin Rəsulzadə və Qafqaz Konfederasiyası" və "Tarix diletantları sevmir. M.Ə.Rəsulzadənin III Reyxlə əməkdaşlığına dair" adlı iki məqaləsi verilmişdir. Hər iki məqalə yüksək siyasi mahiyyət daşıyır. Görkəmli ictimai-siyasi xadimlər, alimlər, Rəsulzadə irsinin araşdırıcıları sırasında Xalq yazıçısı Elçin, filologiya elmləri doktoru, Azərbaycanın Macarıstandakı keçmiş səfiri Vilayət Quliyev, Cümhuriyyət tarixinin görkəmli və yorulmaz tədqiqatçısı, dosent Firdovsiyyə Əhmədova, şərqşünas alim Fərda Əsədov, eləcə də xaricdə yaşayan həmvətənlərimiz və xarici ölkə müəllifləri məqalələri ilə "Qiraət"də iştirak etmişlər. Xalq yazıçısı Elçinin "Məhəmməd Əmin Rəsulzadə" adlı məqaləsində 1955-ci ildə dünyasını dəyişən M.Ə.Rəsulzadənin ölüm xəbəri ilə bağlı hüznlü xatirələrini də oxuyuruq.

Filologiya elmləri doktoru Vilayət Quliyev "Məhəmməd Əmin Rəsulzadə "Qafqaz dağlıları" jurnalının səhifələrində" adlı məqaləsində diqqəti çox önəmli bir məsələyə yönəldir. O, yazır: "Qafqaz dağlıları", ardınca isə "Şimali Kafkasya" jurnalında dərc etdirdiyi silsilə məqalələr Məhəmməd Əminin adını ötən əsrin 20-30-cu illərində Qafqaz problemlərinə, qafqazşünaslığın siyasi, tarixi, iqtisadi və mədəni istiqamətlərinə, Qafqaz xalqlarının qarşılıqlı əlaqələrinə dərindən bələd olan, onların mübarizəsinə yol göstərən müəlliflərdən biri kimi çəkməyə əsas verir." Müəllif (V.Quliyev) Məhəmməd Əmin Rəsulzadənin həmin jurnallardakı məqalələrinin dilimizə tərcüməsinin vacibliyini də qeyd edir.

V.Quliyevin bu fikirləri diplomat Ramiz Abutalıbovun məqaləsində olan aşağıdakı fikirlərlə səsləşir. O, "Məhəmməd Əmin Rəsulzadə və Qafqaz Konfederasiyası" adlı məqaləsində yazır: "Daha vacib məqsəd, gələcəkdə, Qafqaz xalqları rus-bolşevik işğalından azad olduğu təqdirdə Qafqaz dövlətlərinin müstəqilliyinə qarşı 1918-1921-ci illərdə bolşeviklər tərəfindən tətbiq olunmuş imperiya gedişlərinin növbəti cəhdlərinə və bunun hər hansı təzahürünə müqavimət göstərmək olmuşdur." Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ədəbiyyatşünas Vilayət Quliyev Y.V.Çəmənzəminlinin Ukraynada nəşr olunmuş "Studentlər" kitabına yazdığı "Ön söz"də ədibin "əziz yoldaşımız və böyük mürşidimiz" Məhəmməd Əmin Rəsulzadənin ideya dostu, ardıcılı olduğunu göstərmişdir.(Bax: "525-ci qəzet", 12 fevral, 2022-ci il, səh.11)

> ***Azərbaycan xalqının taleyinin bir parçası olan Rəsulzadənin mənalı həyatına, dolğun yaradıcılığına bu gün ani bir nəzər salmaqla biz Vətənə, müstəqil Azərbaycana sədaqət timsallı böyük bir şəxsiyyətin canlı obrazı ilə görüşürük. Sözsüz ki, bu sədaqət, bu sevgi ilə o, Azərbaycan xalqının məhəbbətini qazanmış və qəlblərdə əbədi məskən salmışdır. Rəsulzadə prinsipə sədaqətin, məfkurəyə bağlılığın, səbir və fədakarlığın, əzm və qudrətin timsalı idi. 20 yaşında "İnsanlara hürriyyət, millətlərə istiqlal!" arzusu ilə siyasi həyata atılmış Rəsulzadə "İnsanlara hürriyyət, millətlərə istiqlal!" fikri ilə də 72 yaşında həyatla vidalaşdı. Lakin ömrünün son anına qədər inam onu tərk etmədi.***
>
> *Elsin ƏFƏNDİYEV,*
> *Xalq yazıçısı*

Kitabın redaktoru tarix elmləri doktoru, professor Solmaz xanımın "Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan muxtariyyəti" və Cümhuriyyətin "Azərbaycan" adı ətrafında İran mətbuatı ilə polemikası (1917-1920-ci illər)" adlı məqaləsi müəllifin dərin dəlillərlə, çoxlu sayda sübutlarla bu polemikada qalib olduğunun göstəricisidir.

Qeyd etmək lazımdır ki, müəllifin 2021-ci ildə nəşr etdirdiyi "Cümhuriyyətin "Azərbaycan" adlandırılması və onun tarixi əhəmiyyəti" kitabı İranın müxalif qüvvələrinin yanlış fikirlərinə layiqli cavabdır.

Cümhuriyyət dövrünə aid samballı əsərlərlə hər zaman Rəsulzadəsevərlərin diqqətində olan tədqiqatçı, t.e.n., dosent Firdovsiyyə Əhmədovanın "Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan dövlətçiliyi tarixində yeri" adlı məqaləsi Azərbaycan Milli hərəkatının ideoloqu, Azərbaycan Cümhuriyyətinin ilk dövlət başçısı M.Ə.Rəsulzadənin siyasi mühacirət dövründə Azərbaycançılıq ideyasına, milli dövlətçilik əqidəsinə sadiq qalmasından, onun Azərbaycan milli dövlətçiliyinin bərpası, Azərbaycanın bütövləşməsi amalı ilə yaşadığından bəhs edir.

Türkiyəli alimlərin "I Beynəlxalq Rəsulzadə Qiraətləri"ndə dərc olunmuş məqalələri M.Ə.Rəsulzadənin Cümhuriyyətin süqutundan sonra keçirdiyi ağır həyatından, lakin buna baxmayaraq vətəninin azadlığı yolunda hər cür çətinlikləri dəf edərək, mübarizəsini davam etdirməsindən bəhs edir. İstanbulda fəaliyyət göstərən "Türk ocaqları" cəmiyyətinin müdiri Cezmi Bayram "Türk ocaklı Resulzade" məqaləsində Məhəmməd Əmin Rəsulzadənin 1911-ci ildə İstanbulda təsis edilmiş "Türk ocaqları" cəmiyyətinin başçıları və üzvləri ilə münasibətindən bəhs edir, qurumun mətbu orqanı olan "Türk yurdu" dərgisində nəşr etdirdiyi yazıları araşdırılır.

Digər türkiyəli alim t.e.d., prof. Selahattin Şimşir "Rəsulzadənin Türkiyədəki fəaliyyətləri" məqaləsində Azərbaycan Cümhuriyyətinin 27 aprel işğalı nəticəsində süqutundan sonra M.Ə.Rəsulzadənin Türkiyədə yerləşərək "Azərbaycan savaşına" başladığı illədək ağır həyatını təsvir etmiş, onun həyatının 1920-1931 və 1947-1955-ci illərə bölündüyünü, siyasi fəaliyyətini qələmə almışdır. Türkiyədə "Yeni Kafkasya", "Azeri Türk", "Yeşil yaprak", "Odlu yurd" adlı jurnallarda və "Bildiriş" adlı qəzetdə fəaliyyətində bəhs etmişdir. Müəllifin xüsusən, 1952-ci ilin fevralından nəşrə başlamış "Azərbaycan" jurnalında onun dərc olunan məqalələrindən bəhs etməsi önəmlidir.

Ukraynadan olan yazar Məhəmməd İsrafiloğlu "Məhəmməd Əmin Rəsulzadənin Ukrayna-Rusiya məsələsinə baxışları və müasir Rusiya-Ukrayna münasibətləri" məqaləsində yazır: "M.Ə.Rəsulzadənin 1927-ci ildə "Yeni Kafkasya" yayınlarından "Ukrayna və Rusiya" məqaləsini oxuduqca, bu böyük siyasi dühanın mükəmməl təsbit və analizlərinə heyrət etməmək mümkün deyil." 100 ilə yaxın yaşı olan həmin fikirlər günümüzlə necə də səsləşir!!! Ukraynada cərəyan edən hadisələr buna sübutdur! Məqalənin geniş təhlilini verən müəllif müdrik siyasi xadim Maxatma Qandinin bu sözlərini məqamında xatırladır: "Öz tarixini yaratmayan bir millət onu təkrarlamağa məcburdur."




Tarix elmləri namizədi, şərqşünas alim Fərda Əsədov maraqlı faktlarla zəngin olan məqaləsini "Sovet dövlətində bolşevik hakimiyyətinin mahiyyəti haqqında Həsən bəy Ağayevin Ənvər Paşaya və M.Ə.Rəsulzadənin İosif Stalinə məktublarından (1920-1922)" adlandırıb. Məqalədə həmin məktublarda əksini tapmış bolşevik hakimiyyətinin imperiya mahiyyətini isbat edən münasibətlərdən bəhs olunur.

"I Beynəlxalq Rəsulzadə qiraətləri"ndə prof. Yavuz Akpınar (Türkiyə), Mehman Dəmirli (Şimali Kipr Türk Respublikası), Yeva Mariya Aux (Almaniya), Georgi Mamulia (Fransa), Aygün Haşımova (Polşa), Səadət Kərimi (İsveç) və digər müəlliflər iştirak edirlər. Mən isə kitabla tanış olduqdan sonra yalnız bir neçə müəllifin qiraətini diqqətə çatdırmaq istədim.

**2022**